ZÖHRƏ QURBONOVNA AÇİLOVA



Hal-hazırda Bakı Slavyan Universitetinin Şərqi Avropa və Balkanşünaslıq fakültəsi tələbələrinə “İxtisas dilinin (özbək) yazı vərdişi ” və “İxtisas dilinin (özbək) nitq vərdişi ” fənlərini tədris edir.

Zöhrə Qurbonovna Açilova 1975-ci il noyabrın 30-da Özbəkistan Respublikasının Qaşqadaryo vilayətinin Şahrisabz şəhərində ziyalı ailəsində anadan olmuşdur. Milliyyətcə özbəkdir.1982–1992-ci illərdə Şahrisabz şəhərində yerləşən Qori Niyoziy adına 7 nömrəli (hazırda 94 nömrəli) ümumtəhsil məktəbində təhsil almışdır. 1995–1998-ci illərdə Həmzə adına Şahrisabz Pedaqoji Texnikumunda məktəbəqədər təhsil ixtisası üzrə orta ixtisas təhsili almışdır. 2002–2007-ci illərdə Qarşı Dövlət Universitetinin Özbək filologiyası fakültəsində bakalavriat səviyyəsi üzrə təhsilini davam etdirmişdir. 2021–2023-cü illərdə Şahrisabz Dövlət Pedaqoji İnstitutunda Özbək dili və ədəbiyyatı ixtisası üzrə magistratura təhsili almışdır. 2025-ci ildən etibarən Qarşı Dövlət Universitetində filologiya istiqaməti üzrə doktorantura təhsili alır.Əmək fəaliyyətinə 1992–1993-cü illərdə Şahrisabz Xalq Təhsili Şöbəsinin tabeliyində fəaliyyət göstərən Qori Niyoziy adına 7 nömrəli

ümumi orta təhsil məktəbində laborant vəzifəsində başlamışdır. 1996–2000-ci illərdə Şahrisabz Xalq Təhsili Şöbəsinin nəzdində fəaliyyət göstərən “Gənc Turistlər və Diyarşünaslar Mərkəzi”ndə ədəbi diyarşünaslıq dərnəyinin rəhbəri vəzifəsində çalışmışdır.2000–2005-cü illərdə Şahrisabz Xalq Təhsili Şöbəsinin tabeliyindəki N. V. Qoqol adına 93 nömrəli ümumi orta təhsil məktəbində özbək dili və ədəbiyyatı müəllimi vəzifələrində işləmişdir.2005–2014-cü illərdə Şahrisabz Xidmət Sahələri Peşə Kollecində özbək dili və ədəbiyyatı müəllimi kimi fəaliyyət göstərmişdir. 2014–2023-cü illərdə Şahrisabz Rayon Təhsil Müəssisələrinin Fəaliyyətinin Metodik Təminatı və Təşkili Şöbəsinin tabeliyindəki 99 nömrəli ümumi orta təhsil məktəbində psixoloq kimi fəaliyyətini davam etdirmişdir.

Hal-hazırda Z.Açilova Bakı Slavyan Universitetinin Şərqi Avropa və Balkanşünaslıq fakültəsinin tələbələrinə “İxtisas dilinin (özbək dili) yazı vərdişləri” və “İxtisas dilinin (özbək dili) nitq vərdişləri” fənlərini tədris edir.